**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

# S Ə R Ə N C A M I

**№ 24** **12 mart 2015-ci il**

## Siyəzən şəhərində iki yaşayış massivinə küçə adlarının verilməsi haqqında

Siyəzən şəhərinin yeni salınmış yaşayış massivində və birinci Bakı-Şollar su kəmərinin tikintisi zamanı salınmış yaşayış sahəsində yaşayan sakinlər tərəfindən daxil olmuş kollektiv müraciətlər nəzərə alınaraq, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun 9.8-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.11.17-ci bəndinə əsasən **qərara alıram:**

1. Siyəzən şəhəri ərazisində, bir tərəfdən Babək Bayramov, digər tərəfdən Hökmulla Talıbov küçələrinin əhatəsindəki yeni yaşayış massivi sakinlərinin xahişi nəzərə alınaraq, həmin küçəyə "Cabir Novruz" küçəsi adı verilsin.
2. Siyəzən-Böyük Həmyə avtomobil yolunun sağ tərəfi boyunca yeni tikilmiş fərdi yaşayış evlərinin birinci cərgəsi və Su Kəməri yaşayış sahəsinə "Hacı Zeynalabdin Tağıyev" küçəsi adı verilsin.
3. Dəyişiklik barədə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə məlumat verilsin.
4. Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyevə tapşırılsın.

**Arif Qasımov**